Azərbaycan
Tibb Universiteti



# AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN
# TƏDRİS KLİNİKALARI

# TƏDRİS CƏRRAHİYYƏ KLİNİKASI



*ATU-nun Tədris Cərrahiyyə Klinikası 2013-cü ildən fəaliyyət göstərir. 500 çarpayılıq klinikada cərrahi və diaqnostik istiqamətlərdə 18 kafedra, 28 şöbə mövcuddur.*

On üç mərtəbəli binada yerləşən klinikada tədrislə yanaşı, əhaliyə yüksək diaqnostik və cərrahi müalicə - tibbi yardım da göstərilir. Klinikada ümumi cərrahiyyə, uşaq cərrahiyyəsi, döş qəfəsi cərrahiyyəsi, oftalmologiya,travmatologiya, neyrocərrahiyyə və digər şöbələr fəaliyyət göstərir.

Tibb ocağı ən müasir avadanlıqlarla təchiz edilmişdir.

Burada quraşdırılan xüsusi çoxfunksiyalı işıqlandırma sistemi və kamera vasitəsilə əməliyyat prosesləri dərs otaqlarına, tədris və konfrans zallarına, həmçinin xaricdəki yüksək ixtisaslı mütəxəssislərə ötürülə bilir və tibb müəssisənin arxivinə yüklənir.



# TƏDRİS ONKOLOJİ KLİNİKASI

ATU-nun nəzdindəki Onkoloji klinika 2007-ci ildən fəaliyyət göstərir. Onkoloji klinika 2 stasionar şöbədən, gündüz stasionarından, poliklinika və diaqnostika şöbəsindən, əməliyyat və anestezioloji şöbədən ibarətdir.

Klinikanın histoloji laboratoriyası, kompüter tomoqrafiyası otağı, ultrasəs müayinəsi otağı, digər müalicə-diaqnostika şöbələri, elmi-tədqiqat və müalicə sektorları, ginekologiya, cərrahiyyə və başqa şöbələr ən yeni cihazlarla, müasir avadanlıqlarla təchiz edilərək, tələbələrin və bu klinikaya müraciət edən xəstələrin, həmçinin müəllim və həkimlərin ixtiyarına verilmişdir.




# TƏDRİS STOMATOLOJİ KLİNİKASI

ATU-nun Tədris Stomatoloji Klinikası stomatologiyanın inkişafına nail olmaq, xəstələrə keyfiyyətli tibbi yardım göstərmək, həmçinin peşəkar stomatoloqlar yetişdirmək məqsədilə 2002-ci ildə yaradılmışdır.

Klinikada terapevtik stomatologiya, ortopedik stomatologiya, uşaq stomatologiyası və ortodontiya kafedraları ilə bərabər, terapiya, cərrahiyyə, ortopediya, ortodontiya, parodontologiya, implantologiya, fizioterapiya, rentgen şöbələri və laboratoriyalar fəaliyyət göstərir.

Azərbaycan Tibb Universiteti

azerbaycan__tibb__universiteti

amu.edu.az

Azerbaijan Medical University

*Sağlam gələcək üçün güvənli müalicə!*

# TƏDRİS TERAPEVTİK KLİNİKASI



ATU-nun Tədris Terapevtik Klinikası 2010-cu ildən fəaliyyət göstərir. Klinikada efferent terapiya mərkəzi, endokrinologiya, endoskopiya, hematologiya, heriatriya, kardiologiya, klinik-diaqnostik laboratoriya, konsultativ-diaqnostik poliklinika, nevrologiya, pulmonologiya, allerqologiya və nefrologiya, reanimasiya və intensiv terapiya, revmatologiya və qastroenterologiya, şüa diaqnostika, təcili tibbi yardım, ürək-damar mərkəzi, allerqologiya, uşaq kardio-revmatologiya və uşaq pulmonologiya şöbələri fəaliyyət göstərir.

Klinikada respublikanın bütün şəhər və rayonlarından olan xəstələrə tibbi xidmət göstərilir.

Tədris Terapevtik Klinikada tibb elminin ən son nailiyyətləri və müasir tibbi texnologiyalardan istifadə olunaraq qabaqcıl, mütərəqqi müalicə üsulları tətbiq edilir.